**Kumon öyrənmə metodunun pilot layihə olaraq tətbiq edilməsi**

7 sentyabr tarixində Bakıda Kumon şirkətinə məxsus Kumon öyrənmə metodunun pilot layihə olaraq tətbiq olunmağa başlanması ilə bağlı tədbir həyata keçirilmiş, Səfir Vada Cüniçi tədbirdə iştirak etmişdir.

Kumon öyrənmə metodu Yaponiyada 60 ildən çox tarixə malik olub, hazırda dünyanın 60-dan çox ölkəsində tətbiq edilir. Bu dəfəki layihə ilə Qafqazda ilk dəfə olaraq kumon metodu tətbiq ediləcəkdir.

Bu dəfə pilot layihə olaraq Zirvə liseyinin 400-ə yaxın şagirdini əhatə edən 1-4-cü siniflərində tabletdən istifadə olunaraq riyaziyyat fənni üzrə kumon öyrənmə metodu tətbiq olunacaq.

Bu pilot layihə vasitəsilə Azərbaycanda kumon metodunun daha da genişlənməsinə və bunun ölkədə rəqəmsal təhsilin təşviq edilməsinə töhfə verəcəyinə ümid edilir.





＜Kumon şirkətinin press-relizi＞

https://www.kumon.ne.jp/press/12710/